***Maya ABDULLAYEVA***
*AMEA Folklor İnstitutu*
*magamireqizi@gmail.com*
*https://doi.org/10.59849/2309-7922.2025.2.191*

## ANTROPOMORF TRİKSTERLƏR: MİFOLOJİ VƏ MƏDƏNİ KONTEKSTLƏR

**Xülasə**

Triksterlər mifik sistemlərdə qaydaların pozucusu, dualist xarakter daşıyan və dəyişiklik yaradan antropomorf obrazlardır. Bu antropomorfizm, insanın özünü və cəmiyyəti təhlil etməsi üçün simvolik platforma yaradır. Triksterlər həm komik, həm təhlükəli, həm də maarifləndirici ola bilərlər. Bu məqalədə, triksterlərin antropomorf, yəni insani xüsusiyyətlərə malik formada təcəssümü araşdırılır. Məqsəd, bu fiqurların mifoloji sistemlərdəki rollarını, simvolik funksiyalarını və mədəniyyətlərarası oxşarlıqları müəyyən etməkdir. Trikster arxetipi dünya mifologiyalarında geniş yayılmış və mürəkkəb semantikaya malik olan bir fenomendir. Antropomorf trikster obrazı müxtəlif mədəniyyətlərdə fərqli formada təzahür etsə də, onların funksiyası və simvolik anlamı oxşardır: dəyişkənlik, hiyləgərlik, azadlıq, əxlaqi ikilik və transformasiya. Bu obrazlar insan psixologiyasını və mədəniyyətlərini başa düşmək üçün universal açar fiqurlar kimi çıxış edir

**Açar sözlər:** antropomorf, trikster, mifologiya, xaos, ekvivalent, hiyləgərlik

***Maya ABDULLAYEVA***

## ANTHROPOMORPHIC TRICKSTERS: MYTHOLOGICAL AND CULTURAL CONTEXT

**Summary**

Tricksters are anthropomorphic figures in mythological systems who break rules, possess dualistic characteristics, and generate change. This anthropomorphism creates a symbolic platform for humans to analyze themselves and their society. Tricksters can be comic, dangerous, and enlightening at the same time. This article explores the embodiment of tricksters in anthropomorphic form that is, with human traits. The aim is to identify their roles in mythological systems, their symbolic functions, and their cross-cultural similarities. The trickster archetype is a widespread phenomenon in world mythologies and possesses complex semantics. Although the anthropomorphic trickster figure appears differently across cultures, its function and symbolic meaning remain similar: changeability, cunning, freedom, moral duality, and transformation. These figures serve as universal keys to understanding human psychology and cultures.

**Keywords:** anthropomorphic, trickster, mythology, chaos, equivalence, cunning.

***Мая АБДУЛЛАЕВА***

## АНТРОПОМОРФНЫЕ ТРИКСТЕРЫ: МИФОЛОГИЧЕСКИЙ И КУЛЬТУРНЫЙ КОНТЕКСТ

**Резюме**

Трикстеры – это антропоморфные образы в мифологических системах, нарушающие правила, обладающие дуалистической природой и вызывающие изменения. Такая антропоморфность создаёт символическую платформу для анализа человеком самого себя и общества. Трикстеры могут быть одновременно комичными, опасными и поучительными. В данной статье исследуется воплощение трикстеров в антропоморфной форме – то есть с человеческими чертами. Цель – определить их роли в мифологических системах, символические функции и межкультурные сходства. Архетип трикстера широко распространён в мировых мифологиях и обладает сложной семантикой. Хотя антропоморфный образ трикстера проявляется по-разному в различных культурах, его функции и символическое значение схожи: изменчивость, хитрость, свобода, моральная двойственность и трансформация. Эти образы выступают как универсальные ключи к пониманию человеческой психологии и культур.

**Ключевые слова:** антропоморфизм, трикстер, мифология, хаос, эквивалентность, хитрость.

Trikster anlayışı, ilk dəfə Qərb elmi mühitində XIX əsrdə ortaya çıxmış və K.Q. Yung [10], E.Mirça [9] kimi psixoanalitiklər tərəfindən arxetipik struktur kimi təhlil edilmişdir. Trikster sərhədləri pozan, qaydaları sorğulayan, dualistik xarakter daşıyan bir fiqurdur. Onun antropomorf forması, yəni insana bənzər surəti daha kompleks və çoxqatlı bir məna daşıyır. Triksterlərin insan surətində təqdim olunması, onların sosial sistemdəki rollarını və insan təbiətinin ikililiyini əks etdirmək baxımından xüsusilə əhəmiyyətlidir. Antropomorf triksterlərin əsas xüsusiyyətləri ikiüzlü və paradoksal təbiətə malik olmaqdır. Antropomorf triksterlər həm yaradıcı, həm də dağıdıcı ola bilirlər. Onlar əxlaqi kateqoriyaları (xeyir/şər) pozur, sosial strukturları sınağa çəkir və adətən normativ davranışlara qarşı çıxırlar. "Antropomorf triksterlərdə insani xüsusiyyətlərin qabarıq təsviri verilir. Bu fiqurlar çox vaxt ehtiraslı, acgöz, hiyləgər, lakin eyni zamanda məzəli və xoşagələn kimi təsvir olunurlar. Onlar insan təbiətindəki ziddiyyətləri ağılla instinktin, mədəniyyətlə təbiətin qarşıdurmasını simvolizə edir" [9, 179].

Müxtəlif mədəniyyətlərdə antropomorf triksterlər müxtəlif cür xarakterizə olunur. Ancaq yuxarıda qeyd etdiyimiz xüsusiyyətlər onların ortaq cəhətləri sayıla bilər. Nümunə olaraq Yunan mifologiyasından Hermesi göstərə bilərik. Hermes həm tanrı, həm də hiyləgər fiqur olaraq, oğurluq, ticarət və kommunikasiya ilə bağlıdır. O, tanrılarla insanlar arasında vasitəçi kimi çıxış edir və insanlara dil, yazı kimi mədəni nemətlər gətirir [11]. Anansi antropomorf triksteri Qərbi Afrika mifologiyasında hörümçək şəklində tanınır, bəzən insan forması da alır. O, ağılla

gücü məğlub edən, hiyləgərliklə həyat dərsi verən bir fiqurdur. Onun hekayələri əxlaq dərsləri və sosial nizamın təbliği üçün istifadə olunur [11].

Yaxud Skandinav mifologiyasında Loki ən məşhur antropomorf triksterlərdən biridir. O, tanrılarla birlikdə yaşasa da, tez-tez onlara qarşı çıxır. Loki dəyişən formalarda görünə bilər, lakin çox zaman insan surətində təqdim olunur. Onun fəaliyyətləri xaos yaratsa da, nəticədə yenidən nizamın qurulmasına səbəb olur [11].

Antropomorf triksterlər insanın öz "qaranlıq" tərəfini qəbul etməsi üçün bir vasitə kimi çıxış edir. Bu fiqurlar mədəniyyətin sərhədlərini göstərməklə yanaşı, həm də onların çevikliyini vurğulayır.

Azərbaycan xalq ədəbiyyatında da bu arxetip özünəməxsus şəkildə təzahür edir. Antropomorf triksterlər bütün dünya mədəniyyətlərində olduğu kimi milli folklorumuzda da insan surətində təqdim olunan və sosial-mədəni sistemdə müxtəlif funksiyalar icra edən mifoloji obrazlar kimi mövcuddur. Azərbaycan folklorunda antropomorf triksterlərə nümunə veriləcək bir sıra arxetiplər mövcuddur. Bunlardan Molla Nəsrəddin, Bəhlul Danəndə, "KDQ"-də Dədə Qorqud, Bayandır xan, Burla xatun, Salur Qazan, Beyrək, Dəli Domrul, Dəli Qarcar, "Koroğlu" dastanında Koroğlu, Eyvaz, Həmzə kimi obrazlar ən yaxşı nümunələr ola bilər. Bu arxetiplər haqqında digər məqalələrimizdə ətraflı məlumat verdiyimizdən burada toxunmadığımız obrazların triksterliyini araşdırmağı məqsədəuyğun hesab etdik.

Milli folklorşünaslığımızda ən çox tədqiqata cəlb olunan antropomorf trikster Molla Nəsrəddindir. O, normativ qaydalara qarşı çıxmaqla, hiyləgər, ağıllı, axmaq tərəfləri ilə epik ənənənin ən ziddiyyətli trikster arxetipidir. H.Quliyevin yazdığı kimi: "Molla Nəsrəddin obrazının bütün səviyyələrdə təhlili göstərir ki, Müdrik Qoca arxetipinin trikster paradiqması kimi o gülüş kontekstində dünyaya başqa bir nöqtədən baxmaq təcrübəsini, davranış imkanlarını, düşüncə məntiqini təcəssüm etdirir. Bu obraz timsalında mədəni qəhrəman və triksterlik vahid bir mərkəzdə cəmlənir. Başqa sözlə, onun dünyasında xaos və kosmos eyni anda təzahür edə bilir. Məhz bununla əlaqədardır ki, Molla Nəsrəddin ənənəni, özünü, bütövlükdə kosmik məntiqi inkar edir, ona qarşı xaosun davranış normalarını parodik və imitativ planda təqdim edir" [7, s. 12].

Molla Nəsrəddin kimi məşhur komik fiqur olan digər lətifə qəhrəmanı Bəhlul Danəndədir. O da özünəməxsus triksterik əlamətlərin daşıyıcısı olmaqla, bəzən qarşısındakı insana dərs vermək üçün onun yerinə keçir, onun kimi axmaqlıq nümayiş etdirir. Antropomorf triksterin iki əsas qütbünün – ağıllılıq və axmaqlığın göstəricisi olur. M.Kazımoğlunun yazdığı kimi: "Bir lətifədən yox, neçə-neçə lətifədən tanıdığımız Molla Nəsrəddin, Bəhlul Danəndə kimi komik fiqurlar barədə bizdə ümumi təsəvvür yaranır. Təsəvvür ondan ibarət olur ki, bu qəhrəmanlar gah ağıllı, gah da səfeh adamlar kimi hərəkət edirlər. Bəhlul alim mənasını verən Danəndə adı ilə tanındığı kimi, divanə adı ilə də tanınır. ...İbrət dərsi vermək istədiyi adamın roluna girib axmaqlıq etmək Bəhlul Danəndə üçün də xarakterikdir" [2, s. 142].

KDQ-da obrazlar təpədən-dırnağa xarakterik antropomorf özəlliklərlə, canlı ştrixlərlə işlənmişdir ki, onları sanki real şəxsiyyətlər kimi tanıyırıq. T.Hacıyevin

təbirincə desək, "Dünya qəhrəmanlıq dastanlarının hər birinə məxsus olan salnaməçilik burada əzəmi elmilik və tarixiliklə təzahür edir. Hətta o dərəcədə ki, çoxları dastanın obrazlarını konkret tarixi şəxsiyyətlərlə bağlayırlar" [1, 5].

Götürək, Bayandır xan obrazını. Dastanda onun haqqında geniş məlumat verilməsə də, onun hakimiyyətində trikster elementləri diqqət çəkir. O, xanlar xanıdır, adətən, Oğuz elinin ədalətli sultanıdır, lakin onun davranışlarını dastan boyu izlədikcə görürük ki, bir antropomorf trikster kimi davranır: məsələn, o, "toylar" təşkil edir və niyyətini əvvəlcədən bildirmədən igidləri sınayır. Qonaqlar arasında fərq qoyur, bəzi qəhrəmanları təhqir edir və sınağa çəkir. Bu cür davranışlar həm oyunbazlıq, həm də sosial ədalət testidir. Bu tipik bir trikster funksiyasıdır – sistemi pozaraq yeni dəyərləri üzə çıxarmaqdır. Belə ki, Buğacın atası Dirsə xanı övladı olmadığı üçün qara çadıra qoyan da, atasını dustaqlıqdan qurtardığı üçün Buğaca bəylik verən də xanlar xanı Bayandır xandır [3, 46].

Dastanın iki boyunda ("Salur Qazanın evinin yağmalanması" və "Uruzun dustaq olduğu boy") xarakterinin bütün antropomorf cizgiləri ilə hərtərəfli təsvir edilən Burla xatun da trikster obrazdır. Belə ki, "Salur Qazanın evinin yağmalanması" boyunda 40 incəbelli qızın onun əvəzedicisi kimi verilməsi, öz şərəfini qurtarmaq üçün yalan danışması və s. məhz trikster xüsusiyyətlərdir. S.Rzayevin yazdığı kimi, "40 qızın yalan danışması Xaosa xas davranış formuludur. Dəfələrlə qeyd olunduğu kimi, oğuzlar Xaosu "Yalançı dünya" adlandırırlar və yalançılıq, tərsinə/əksinə hərəkətlə yanaşı, bir kosmoslunun Xaosdakı davranışının əsas formullarından biridir. 40 qızın özünü Burla xatun kimi təqdim etməsi həm də onların Burlanı 40 dəfə əvəzləməsi mənasındadır. Bu eyni zamanda o deməkdir ki, 40 qız Burla xatunun 40 ekvivalenti/əvəzedicisidir" [8, 103].

Bundan başqa "KDQ"-da Dəli Domrul obrazı antropomorf triksterin tipik nümunəsidir. Bu fiqurun dünya mifoloji trikster modelləri ilə paralel tərəfləri vardır. Domrul xalq dastanında öz gücünə və cəsarətinə güvənən, ölümə meydan oxuyan şəxs kimi təsvir olunur. O, Allah ilə razılaşaraq ölümlə bağlı sərhədi dəyişdirmək istəyir. "Allah-təalanın əmri böylə oldu kim,Dəli Domrul can yerinə canbulsun, onun canı azad olsun" – desək, Dəli Domrulun cavabı belə olur: "Məgər bir qoca babam,bir qarı anam var, gəl gedəlim, ikisindən biri bolay ki, canın verə, alğıl, mənim canım qoğıl" [5, 76].

Bu cür davranış, ənənəvi dini və sosial normativləri pozmaq deməkdir. Bu, xüsusiyyət bütün mədəniyyətlərdə trikstерlərin əsas xüsusiyyətidir, başqa sözlə, sosial sərhədləri aşmaq və sistemin məntiqini alt-üst etmək.

Domrul obrazı da Yunan mifologiyasında Hermes və ya Skandinaviya mifologiyasındakı Loki kimi sosial və dini sərhədləri sınayır, həm yaradıcı, həm dağıdıcı funksiyalar icra edir. Ancaq Domrulun Azərbaycan mədəni kontekstindəki özəlliyi, onun folklor estetikası və milli-dini düşüncə tərzi ilə bağlıdır. Bütün bu özəllikləri ilə bərabər Domrul insani duyğulara, qorxuya, cəsarətə və məğlubiyyətə malikdir. O, sadəcə, mifoloji bir qəhrəman deyil, eyni zamanda insanın özünə

və taleyinə münasibətinin simvoludur. Bu antropomorf xüsusiyyətlər onun mifoloji trikster kimi daha dərin səviyyədə anlaşılmasına şərait yaradır.

Koroğlu dastanında "Həmzənin Qıratı qaçırması" qolunda rast gəldiyimiz Həmzə obrazı antropomorf trikster kimi fərqli sifətlərin birləşməsidir. Koroğlunu aldatmaq,öz məqsədinə çatmaq üçün dondan-dona girən yalançı Həmzə, qolun sonunda Koroğluya verdiyi sözə əməl edir, Qıratın yüyənini Koroğluya özü təhvil verir. Beləliklə mənfi trikster gözlənilməz addım atır, müsbət antropomorf xüsusiyyət nümayiş etdirir. S.Rzayev yazır ki, "Keçəl Həmzə semantemi – etnik-mədəni sistemin özünüqoruma mexanizmlərinin təşəkkülü və təkmilləşməsinin aprobasiya – sınaq mexanizmidir: sistemin mərkəzdənqaçma proseslərini özündə ehtiva etməklə mərkəzədönmə proseslərinin yaşanmasını təmin edən mühüm, zəruri oppozitiv ünsürdür" [8, 16].

Ümumiyyətlə, Azərbaycan epik folklorunda, xüsusilə nağıl və dastanlarda keçəl obrazı hiyləgərlik, ağıllılıq, çoxbilmişlik nümayiş etdirməklə ən uğurlu triksterlərdəndir. Bu obrazlara misal olaraq "Göyçək Fatma", "Sehirli üzük", "Bacı və qardaş", "Keçəlin fəndi" kimi nağıllarda,"Tahir və Zöhrə" dastanında belə keçəl obrazlarına rast gəlirik. Muxtar Kazımoğlu əbəs yerə demir ki, "Keçəl sir-sifətcə çirkin olsa da, əksər hallarda qoçaqdır, diribaş və fərasətlidir. Keçəl qızlardan fərqli olaraq keçəl oğlanlar şərdən çox xeyiri təmsil edirlər. Amma qarşıya belə bir sual çıxır: diribaşlığı ilə seçilən, ağlı, fərasəti ilə həmişə oyundan qalib çıxan keçəl surəti saçın güc, tüksüzlüyün zəiflik olması barədə deyilənlərlə ziddiyyət təşkil etmirmi? Suala doğru-düzgün cavab vermək üçün o dünyaya məxsus varlıqlarda tük və tüksüzlük məsələsinə nəzər salmaq lazım gəlir. Məsələ burasındadır ki, o dünyaya məxsus varlıqlarda uzun saç-saqqalla yanaşı, tüksüzlük də güc-qüdrətin göstəricisidir" [2, 75].

Nəinki keçəl obrazları həmçinin kələkbaz obrazları da nağıllarımızda antropomorf triksterlər kimi məşhurdurlar. Bunun ən yaxşını təsdiqini R.Qafarlının tədqiqatlarında görmək mümkündür. "Oxşar epizodlar "Ağ atlı oğlan" nağılında Nərbalanın və iki xəbis qardaşının da başına gəlir. Hər iki süjetin trikster miflərindən yarandığı göz qabağındadır. Eləcə də meydan tamaşalarında pəhləvanın dublyoru kimi çıxış edən kələkbazları yada salaq: pəhləvanın bütün tryuklarını addım-addım yamsılayan kələkbaz qəribə maska taxır, kürkü tərsinə geyinir, yerdə düz xətt çəkib üstündə "kəndirbazlıq" edir. Bütün bunlar triksterlərin ritullaşmış variantıdır" [6, 236].

Azərbaycan folklorunda antropomorf triksterlərə dair araşdırmalar Molla Nəsrddin, Bəhlul Danəndə, Koroğlu, Həmzə, Dədə Qorqud, Salur Qazan, Dəli Dumrul və s. kimi obrazların mədəniyyətimizin əxlaqi və ontoloji təbəqələrini necə əks etdirdiyini göstərir. Bu fiqurlar insan təbiətinin mürəkkəbliyini, sosial və dini sərhədlərinin dinamikliyini vurğulayır.

Antropomorf trikster fiquru insanın özünütanıması, sosial və əxlaqi normaların sınanması, həmçinin mədəni yenilənmə proseslərində mühüm rol oynayır. Onlar həm gülməli, həm təhlükəli, həm də dərin fəlsəfi fiqurlar kimi diqqət çəkir.

Müxtəlif mədəniyyətlərdə bu fiqurların təkrarlanması, onların universallığını və insan təbiətindəki dərin qarşıdurmaları əks etdirdiyini göstərir.

## ƏDƏBİYYAT

1. Hacıyev, T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Yeni Nəşrlər Evi, Elm Nəşriyyatı, 1999, 216 s.

2. Kazımoğlu, M. Xalq gülüşünün poetikası. Bakı: Elm nəşriyyatı, 2006, 264 s.

3. Kitabi-Dədə Qorqud. Bakı: YNE, 1999, 704 s.

4. Kitabi-Dədə Qorqud (Əsl və sadələşdirilmiş mətnlər). Bakı: Öndər, 2004, 376 s.

5. Kitabi-Dədə Qorqud ensiklopediyası: 2 clddə, I cild. Bakı: Yeni nəşrlər evi, 2000, 623 s.

6. Qafarlı, R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlar arası əlaqə) Bakı: 2011, 780 s.

7. Quliyev, H. Müdrik Qoca arxetipinin semantik strukturu və paradiqmaları. Bakı: Elm və təhsil, 2016, 216 s.

8. Rzasoy, S. "Dədə Qorqud" eposu. III kitab. Şaman-qəhrəmanın xaos dünyasına yolçuluğu. Bakı: Elm və təhsil, 2025, 172 s.

9. Eliade, Mircea. The Sacred and the Profane. The Nature of Religion. New York, 1959, 211 s.

10. Jung, C.G. The Archetypes and The Collective Unconscious. Princeton University Press, 1969, 4000 s.

11. https://worldhistoryedu.com/trickster-deities-from-around-the-world/.